## Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında Dövlət Proqramının təsdiqi barədə[1]

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN SƏRƏNCAM

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 29 iyul tarixli, 169 nömrəli Fərmanı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı»nın VI fəslinin 1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi tərəfindən təqdim olunmuş «Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında Dövlət Proqramı» təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri**
**A.RASİ-ZADƏ**

Bakı şəhəri, 22 iyun 2000-ci il
125s

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2000-ci il 22 iyun tarixli, 125s nömrəli sərəncamı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında DÖVLƏT PROQRAMI

Bu Proqram uşaqlarla iş sahəsində dövlət siyasətinin Azərbaycan Respublikasının mövcud inkişaf mərhələsinə uyğun şəkildə həyata keçirilməsi, görülən işlərin səmərəliliyinin artırılması, uşaq hüquqlarının müdafiəsinin təmin edilməsi, onların mənəvi, əxlaqi və fiziki kamilliyə çatması, layiqli vətəndaş kimi yetişməsinə əlverişli şəraitin yaradılması məqsədi ilə hazırlanmışdır.

I. Proqramın əsas vəzifələri:

1. BMT-nin Uşaq Hüquqları Konvensiyasının və «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikası Qanununun müddəalarının həyata keçməsinə əlverişli şəraitin yaradılması;

2. Uşaq və yeniyetmələrin təhsili, tərbiyəsi, ahəngdar inkişafı üçün məqsədyönlü, sistemli və səmərəli fəaliyyətin təşkil olunması;

3. Uşaqların müdafiəsinin gücləndirilməsi;

4. Ana və uşaq sağlamlığının qorunması və möhkəmləndirilməsi;

5. Uşaqların qida məhsulları ilə təminatının yaxşılaşdırılması;

6. Dövlət himayəsində olan əlverişsiz şəraitdə yaşayan, əqli və ya fiziki cəhətdən qüsuru olan uşaqlara qayğının artırılması;

7. Sosial müdafiəyə ehtiyacı olan ailələrlə bağlı işlərin aparılması;

8. Uşaq əməyinin istismarı hallarına qarşı ciddi mübarizə aparılması;

9. Yetkinlik yaşına çatmamışların hüquqlarının təmin edilməsi.

II. Proqramın əsas istiqamətləri

| | Tədbirlər | İcraçılar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| **1. Ümumi və təşkilati tədbirlər** | | | |
| 1.1. | Uşaqlarla iş sahəsində dövlət siyasətini müəyyənləşdirən milli konsepsiyanın hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Bakı şəhər İcra Hakimiyyəti, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Uşaq Fondu | 2000—2001 |
| 1.2. | Azərbaycan Respublikasında uşaqlar haqqında statistik məlumatın toplanması sisteminin işlənməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Dövlət Statistika Komitəsi, Uşaq Fondu | 2000—2001 |
| 1.3. | Dövlət və qeyri-dövlət uşaq təşkilatlarının qarşılıqlı fəaliyyətinin təşkil edilməsi | Xarici İşlər Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi , Bakı şəhər İcra Hakimiyyəti, Uşaq Fondu | müntəzəm |
| 1.4. | «Azərbaycanda uşaqların vəziyyəti» adlı illik hesabatın hazırlanması və nəşr edilməsi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi , Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Bakı şəhər İcra Hakimiyyəti, Dövlət Statistika Komitəsi, Uşaq Fondu | müntəzəm |
| **2. Uşaqların iqtisadi, sosial, mədəni hüquqlarının təmin olunması ilə bağlı işlər** | | | |
| 2.1. | «Ekoloji təmiz uşaq qida məhsullarının istehsalı» proqramının hazırlanması | Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Maliyyə Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Ticarət Nazirliyi, Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi | 2000—2001 |
| 2.2. | «Uşaq və ailə istirahətinə dövlət yardımı» proqramının hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Uşaq Fondu | 2000—2001 |
| 2.3. | «Uşaq və anaların sağlamlığı» haqqında proqramın hazırlanması | Səhiyyə Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | 2000—2001 |
| 2.4. | Kiçik ailə sahibkarlığının formalaşması və inkişafı üçün iqtisadi, və informasiya yardımının göstərilməsi | Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi, Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Ticarət Nazirliyi, Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi | müntəzəm |
| 2.5. | Uşaq istirahət düşərgələri, sanatoriyalar və s. müəssisələrin fəaliyyətinin bərpa edilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Uşaq Fondu, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası | 2000—2004 |
| 2.6. | Uşaqların sosial və tibbi sığorta sisteminin təkmilləşdirilməsi, sığorta sistemində uşaqların mənafeyini qoruyan tədbirlərin nəzərdə tutulması | Səhiyyə Nazirliyi, Dövlət Sığorta Kommersiya Şirkəti | 2000—2001 |
| **3. Əlverişsiz şəraitdə yaşayan uşaqlarla iş** | | | |
| 3.1. | Çətin tərbiyə olunan qızların xüsusi təlim-tərbiyə müəssisələrinə cəlb olunması və layiqli vətəndaş kimi yetişməsi üçün onlarla aparılan profilaktik işin gücləndirilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi | 2000—2002 |
| 3.2. | Qaçqın və məcburi köçkün, habelə hərbi münaqişə dövründə zərər çəkmiş uşaqların sosial-psixoloji reabilitasiyası üzrə xüsusi proqramın hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 2000—2001 |
| 3.3. | «Küçə uşaqlarına dövlət himayəsi» proqramının hazırlanması | Gənclər, İdman və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Bakı şəhər İcra Hakimiyyəti, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | 2000—2001 |
| 3.4. | Çətin tərbiyə olunan, əqli və ya fiziki cəhətdən qüsuru olan uşaqların sosial adaptasiyası istiqamətində tərbirlərin həyata keçirilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi | 2001—2004 |
| 3.5. | Əqli və fiziki cəhətdən qüsuru olan, eləcə də çətin tərbiyə olunan uşaqlarla işləyən kadrların hazırlanması və ixtisaslarının artırılması istiqamətində tədbirlərin görülməsi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi , Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi | müntəzəm |

| | | | |
|---|---|---|---|
| 3.6. | Qaçqın və məcburi köçkünlərin məskunlaşdığı yerlərdə uşaqların sağlamlığının qorunması məqsədi ilə xüsusi profilaktik tədbirlərin görülməsi | Səhiyyə Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları | müntəzəm |
| **4. Sosial müdafiəyə ehtiyacı olan və dövlət himayəsində olan uşaqlarla iş** | | | |
| 4.1. | Valideynini itirmiş dövlət himayəsində olan uşaqların həyat şəraitini yaxşılaşdırmaq, təhsil və tərbiyəsinə nəzarəti gücləndirmək məqsədi ilə xüsusi qrupun yaradılması | Gənclər, İdman və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Daxili İşlər Nazirliyi, Bakı şəhər İcra Hakimiyyəti | 2000 |
| 4.2. | Uşaq müəssisələrində alternativ ailə və ictimai əsaslı qurumların yaradılması | Gənclər, İdman və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Bakı şəhər İcra Hakimiyyəti | 2000—2001 |
| 4.3. | Əqli və ya fiziki cəhətdən qüsurlu uşaqların inkişafı üçün müvafiq tədbirlərin görülməsi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi , Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Uşaq Fondu | müntəzəm |
| 4.4. | Dövlət himayəsində olan yetim və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması məqsədi ilə onların geyim və yataq əşyaları, dərman preparatları və sarğı materialları ilə təminatının gücləndirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Bakı şəhər İcra Hakimiyyəti | müntəzəm |
| 4.5. | Uşaq evləri və internat məktəbləri məzunlarının peşə-ixtisas təhsili alması, işlə və mənzillə təmin olunması üçün müvafiq tədbirlərin görülməsi | Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, yerli icra hakimiyyəti orqanları | müntəzəm |
| 4.6. | Valideyn himayəsindən məhrum olmuş və yetim uşaqlara qəyyumluğun nüfuzunu artırmaq üçün xüsusi tədbirlərin görülməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, Mətbuat və İnformasiya Nazirliyi, Daxili İşlər Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | 2000—2001 |
| **5. Uşaqların istismarının və onlara qarşı zorakılığın qarşısının alınması ilə bağlı işlər** | | | |
| 5.1. | Yetkinlik yaşına çatmamışların fahişəliyə, spirtli içki və narkotik maddələrdən istifadə olunmasına cəlb edilməsi hallarının qarşısının alınması ilə bağlı proqramın hazırlanması | Daxili İşlər Nazirliyi, Təhsil Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Səhiyyə Nazirliyi, Bakı şəhər İcra Hakimiyyəti, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Respublika Prokurorluğu | 2000 |
| 5.2. | Uşaq və yeniyetmələrin spirtli içki və tütün məmulatlarının istehsalı və satışı ilə əlaqədar işlərə cəlb edilməsinin qarşısının alınması | Daxili İşlər Nazirliyi, yerli icra hakimiyyəti orqanları, Respublika Prokurorluğu | müntəzəm |
| 5.3. | Uşaqların zorakılığa, seksual istismara məruz qalmasına qarşı mübarizə formalarının gücləndirilməsi, belə uşaqlar üçün respublika üzrə anonim «inam telefonu» xidmətinin yaradılması | Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Mətbuat və İnformasiya Nazirliyi, Rabitə Nazirliyi, Dövlət Teleradio Verilişləri Şirkəti, Qadın Problemləri üzrə Dövlət Komitəsi | 2000—2001 |
| 5.4. | Uşaq tərbiyə-əmək koloniyalarında və digər xüsusi rejimli müəssisələrdə təlim-tərbiyə işinin gücləndirilməsi | Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | müntəzəm |
| 5.5. | Təhsildən yayınma hallarının müəyyənləşdirilməsi və bunun qarşısının alınması üçün müvafiq tədbirlərin görülməsi | Təhsil Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Daxili İşlər Nazirliyi, Bakı şəhər İcra Hakimiyyəti, Dövlət Statistika Komitəsi | 2000 |
| **6. Uşaqların normal və ahəngdar inkişafı ilə bağlı işlər** | | | |
| 6.1. | İstedadlı uşaqların aşkar edilməsi və onlarla fərdi iş aparılması məqsədi ilə müvafiq proqramların hazırlanması | Təhsil Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Mədəniyyət Nazirliyi, Bakı şəhər İcra Hakimiyyəti | 2000—2004 |
| 6.2. | Uşaqların və uşaq kollektivlərinin iştirakı ilə respublika musiqi və incəsənət müsabiqə və festivallarının keçirilməsi | Mədəniyyət Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Bakı şəhər İcra Hakimiyyəti | 2000—2003 |
| 6.3. | Milli tariximizin, mədəniyyətimizin, adət və ənənələrimizin dərindən öyrənilməsi və uşaqlarda vətənpərvərlik hissinin gücləndirilməsi məqsədi ilə mövcud tədris proqramlarının təkmilləşdirilməsi | Təhsil Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Müdafiə Nazirliyi, Mətbuat və İnformasiya Nazirliyi, Dövlət Teleradio Verilişləri Şirkəti | 2000—2002 |
| 6.4. | Respublika Uşaq Birliyi Rəhbərləri məktəbində uşaq ictimai təşkilat və birlikləri rəhbərlərinin hazırlanması işinin təşkili | Təhsil Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi | 2000 |

| | | | |
|---|---|---|---|
| 6.5. | Orta məktəblərdə milli tətbiqi sənət növlərinin öyrədilməsi və təbliğinə diqqətin artırılması | Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi , Mədəniyyət Nazirliyi | müntəzəm |
| 6.6. | Uşaqların maraqlarına uyğun yeni klubların, bədii özfəaliyyət kollektivlərinin, teatr və dərnəklərin yaradılması | Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2000—2002 |
| 6.7. | Uşaq və yeniyetmələrin bədən tərbiyəsi və idmanla kütləvi şəkildə məşğul olması üçün yerlərdə idman meydançalarının salınması, mövcud idman qurğularında (stadion, hovuz, meydanlar) fəaliyyət göstərən seksiyaların işinin gücləndirilməsi məqsədi ilə onların müvafiq avadanlıqla təchiz edilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2000—2003 |
| 6.8. | Uşaq və yeniyetmələr üçün teleradio verilişlərinin artırılması, tədris telekanalının açılması və onları düşündürən problemlər üzrə xüsusi proqramların yaradılması | Dövlət Teleradio Verilişləri Şirkəti, Təhsil Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi | 2000—2001 |
| 6.9. | Uşaqların yaradıcılıq qabiliyyətinin, estetik tərbiyəsinin inkişafı üçün mövcud uşaq müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi, həmçinin, müasir tələblərə cavab verən yeni müəssisələrin yaradılması | Təhsil Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Mədəniyyət Nazirliyi, Bakı şəhər İcra Hakimiyyəti | 2000—2003 |
| 6.10. | Uşaq və yeniyetmələr arasında dini biliklərin düzgün təbliğ edilməsi sahəsində aparılan işə ciddi nəzarətin təmin olunması | Nazirlər Kabineti yanında Dini İşlər İdarəsi, Qafqaz Müsəlmanları Ruhani İdarəsi, Mətbuat və İnformasiya Nazirliyi, Dövlət Teleradio Verilişləri Şirkəti, hüquq mühafizə orqanları | 2000—2003 |
| 6.11. | Yuxarı sinif şagirdləri arasında peşəyönümü işinin genişləndirilməsi | Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | müntəzəm |
| **7. Yetkinlik yaşına çatmamış uşaqların hüquqlarının təmin edilməsi ilə bağlı işlər** | | | |
| 7.1. | Tərbiyə-əmək koloniyalarında yetkinlik yaşına çatmamışların hüquqlarının müdafiəsinin təmin olunmasına nəzarətin gücləndirilməsi | Respublika Prokurorluğu, Ədliyyə Nazirliyi | müntəzəm |
| 7.2. | Tərbiyə-əmək koloniyalarında cəza çəkmişlərin və azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzalara məhkum olunmuşların cəza müddətindən sonra təhsilə, faydalı əməyə cəlb olunması, onların üzərində xüsusi nəzarətin gücləndirilməsi ilə əlaqədar keçirilən tədbirlərin səmərəliliyinin artırılması | Daxili İşlər Nazirliyi, Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi , Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, yerli icra hakimiyyəti orqanları | müntəzəm |
| 7.3. | Yetkinlik yaşına çatmayan çətin tərbiyə olunan qızlar üçün qızlar məktəbinin yaradılması | Təhsil Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Daxili İşlər Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | 2000—2002 |
| 7.4. | Xüsusi təlim-tərbiyə və ya ixtisaslaşdırılmış tibb müəssisələrində olan uşaqların səhhətinin mühafizəsi, zəruri təhsil və peşə hazırlığı keçmələri üçün tədbirlərin həyata keçirilməsi | Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Təhsil Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Respublika Prokurorluğu | 2000—2001 |
| **8. Uşaq Hüquqları Konvensiyasının və «Uşaq Hüquqları haqqında» Azərbaycan Respublikası Qanununun öyrənilməsi və təbliği ilə bağlı işlər** | | | |
| 8.1. | Uşaq Hüquqları Konvensiyasının, «Uşaq Hüquqları haqqında» Qanunun prinsiplərinin geniş kütlələrə çatdırılması üçün tədbirlər görülməsi | Dövlət Teleradio Verilişləri Şirkəti, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi , Uşaq Fondu, Mətbuat və İnformasiya Nazirliyi, Təhsil Nazirliyi, Bakı şəhər İcra Hakimiyyəti[2] | müntəzəm |
| 8.2. | Uşaq Hüquqları Konvensiyasının, «Uşaq Hüquqları haqqında» Qanunun ümumtəhsil məktəblərinin və pedaqoji işçilərin ixtisasartırma institutlarının tədris proqramlarına daxil edilməsi | Təhsil Nazirliyi | 2000—2001 |
| 8.3. | Uşaq Hüquqları Konvensiyası, «Uşaq Hüquqları haqqında» Qanun və uşaqlarla bağlı digər normativ-hüquqi aktlarla əlaqədar tədris-informasiya sisteminin yaradılması, görülən işləri əks etdirən informasiya bülleteninin nəşr olunması | Təhsil Nazirliyi, Dövlət Elm və Texnika Komitəsi | 2000—2001 |

| | | | |
|---|---|---|---|
| 8.4. | Uşaq hüquqları və onların qorunması ilə bağlı respublika və Beynəlxalq konfransların keçirilməsi | Gənclər, İdman və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Uşaq Fondu | 2000—2001 |
| 8.5. | «Uşaq hüquqları üzrə məsləhətlər» hüquqi xidmət şəbəkəsinin yaradılması | Vəkillər Kollegiyası, Təhsil Nazirliyi, Uşaq Fondu | 2000—2001 |
| 8.6. | Uşaq hüquqlarını müdafiə üzrə mütəxəssislərin hazırlanması | Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi | 2000—2005 |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 25 oktyabr 2001-ci il tarixli **168** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 10, maddə 653**)
2. 6 noyabr 2006-cı il tarixli **237** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 11, maddə 990**)

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 25 oktyabr 2001-ci il tarixli **168** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 10, maddə 653**) ilə 125s nömrəli sərəncamında və bu sərəncamla təsdiq edilmiş «Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında Dövlət Proqramı»nın cədvəlində «**Gənclər və İdman**» sözləri «**Gənclər, İdman və Turizm**» sözləri ilə əvəz edilmişdir.

[2] 6 noyabr 2006-cı il tarixli **237** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 11, maddə 990**) ilə sərəncamı ilə təsdiq edilmiş "Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında Dövlət Proqramı"nın cədvəl hissəsinin 1.3-1.4-cü, 3.5-ci, 4.3-cü, 5.4-cü, 6.5-ci, 7.2-ci və 8.1-ci bəndlərində "**Gənclər, İdman və Turizm Nazirliyi**" sözləri "**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.-2000.- 30 iyun, № 6.- S. 2608-2614.